*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 116-122* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.116*

# Azər Buzovnalı yaradıcılığında monumental sənət abidəsi "Çingiznamə"

**Könül Bağırova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
E-mail: bagirova.konul@yahoo.com

**Annotasiya.** XIX yüzilin sonu, XX yüzilin əvvəllərində yazıb-yaratmış söz ustadı Azər Buzovnalının tarixi əsərlər silsiləsindən qələmə aldığı "Çingiznamə" əsərinin avtoqraf əlyazma nüsxəsi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xəzinəsində saxlanılır. Ustad şair tarixi-qəhrəmanlıq dastanı olan "Çingiznamə"ni 1935-ci ildə ömrünün müdrik çağlarında yazmışdır. Azər Buzovnalı "Çingiznamə" dastanından illər önçə 1908-ci ildə "Qəzavatnamə" adlı dini-tarixi mövzulu əsərini, 1925-ci ildə isə geniş süjetli tarixi mövzuda soy-kökümüzdən, milli keçmişimizdən, Dədə-Qorqud və Ozan-aşıq mədəniyyətinin bünövrəsi əsasında yaranan, böyük elmi-tarixi əhəmiyyətə malik "Oğuznamə"ni qələmə almışdır. Ustad sənətkarın türklüyə, milli-mənəvi dəyərlərə, tarixi keçmişimizə sevgisi onun tarixi-qəhrəmanlıq dastanlarında əks olunmuşdur.
Təqdim etdiyimiz məqalədə "Çingiznamə" əsərinin Azərbaycan ədəbiyyatında bədii sənət nümunəsi kimi özünəməxsusluğu incələnmiş, bu kimi tarixi əsərlər kontekstində müəllifin milli keçmişimizə, mənəvi dəyərlərə və əsasən də yaşadığı cəmiyyətə olan münasibəti araşdırılmış, tarixi mövzunun şairin yaradıcılığında oynadığı rolu müəyyən edilmişdir.
**Açar sözlər:** Azər Buzovnalı, "Çingiznamə", "Oğuznamə", əlyazma, milli keçmişimiz, tarix, ədəbiyyat

**Məqalə tarixçəsi:** göndərilib – 10.01.2025; qəbul edilib – 24.01.2025

# The monumental art memorial "Chingizname" in the creativity of Azer Buzovnali

**Konul Bagirova**
Doctor of Philosophy in Philology, Associate Professor
Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS
E-mail: bagirova.konul@yahoo.com

**Abstract.** The autograph manuscript copy of "Chingizname" written by the master of words Azer Buzovnali, who wrote and created in the late 19th century and early 20th century, from the series of historical works, is kept in the treasury of the Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS. The master poet wrote the historical-heroic epic "Chingizname" in 1935 in the wise years of his life. Years before the "Chingizname" epic, the poet wrote the religious-historical work "Gazavatname" in 1908, and in 1925, the work "Oguzname" of great scientific and historical importance, which was created on the basis of our ancestry, national past, and the foundation of the culture of Deda-Gorgud and Ozan-Ashig, with a broad plot. The poet's love for Turkishness, national-spiritual values, and our historical past is reflected in his historical-heroic epics.
In the article we have presented, the uniqueness of the work "Chingizname" as an example of artistic art in Azerbaijani literature has been refined, in the context of such historical works, the attitude of the author towards our national past, national moral values and mainly the society in which he lives has been investigated, and the role played by the historical theme in the poet's work has been determined.

**Keywords:** Azer Buzovnali, “Chingizname”, “Oghuzname”, manuscript, our national past, history, literature

**Article history:** received – 10.01.2025; accepted − 24.01.2025

## Giriş / *Introduction*

Görkəmli şair, mütərcim, maarifpərvər pedaqoq Azər Buzovnalı həm də keçmişimizi qürurla gələcəyə daşıyan tarixi əsərlər müəllifi kimi də tanınmaqdadır. Şair klassik ənənələrə əsaslanan, modern yanaşma tərzi ilə süslənmiş vətəndaş münasibəti, qayəsində türkçülük-islamçılıq olan mənəvi ruh, istiqlal və parlaq gələcək arzusu ilə Azərbaycan ədəbi-ictimai fikrinin inkişafında, poeziyanın məzmun və mündəricə baxımından zənginləşməsində özgün və xüsusi rol oynamışdır. Azər Buzovnalının saysız-hesabsız qəzəlləri, dövrünün müsbət keyfiyyətləri ilə yanaşı, eybəcərliklərini də ehtiva edən münşəatı, tarixi poemaları, dövri mətbuatda dərc etdirdiyi publisistik yazıları, klassiklərin şah əsərlərindən etdiyi tərcümələri müasir dövrümüzdə də aktualdır. Sevindirici haldır ki, zəngin yaradıcılıq yolu qət etmiş sənətkarın ədəbi irsi bu gün onun haqqında yazılmış monoqrafiyalarda, əsərlərindən ibarət kitablarda, mətbuatda araşdırılır və geniş oxucu kütləsinə təqdim edilir. Ədibin Əlyazmalar İnstitutunda saxlanılan zəngin şəxsi arxivi onun haqqında yazılmış tədqiqatların əsas istiqamətverici mənbəyidir. Azər Buzovnalının tarixi əsərlərindən bəhs edən professor Məhərrəm Qasımlı “Oğuznamə” məsnəvisinin yazılma tarixini əsas götürərək, həmin dönəmdə şairin qarşılaşdığı çətinliklərdən, dövrün ixtilaflarından məlumat verir və bildirir ki, “Azər Buzovnalıdan əvvəl bir çox böyük məsnəvi yazanlar bu istqamətin sözün əsl ustadları olmuşdur. İstər Nizami, istər digər böyük sənətkarlar olmuş olsun, amma belə bir məsnəvini – “Oğuznamə” ni Azər Buzovnalıdan başqa Azərbaycan türkcəsində, Azərbaycan ədəbiyyatı tarixində ortaya qoyan bir qələm sahibini mən görməmişəm. O mənada Azər Buzovnalının bu ədəbi-tarixi işi və onun içərisində yer alan türkçülük-oğuzçuluq düşüncəsi Azərbaycanda sovet ideologiyasının tüğyan etdiyi bir dönəmdə – iyirminci əsrin 20-ci illərində ərsəyə gəlməsi, yenə də qeyd edirəm ki, heyrətamiz bir məsələdir” [3, s.8]. Azər Buzovnalının “Oğuznamə” əsəri haqqında yazan akademik Rafael Hüseynov isə əsərin digər xüsusiyyətləri haqqında ətraflı fikirlər söyləyir: “Məşədi Azər “Oğuznamə”sini 1925-ci ilin iyununda başlayaraq avqustunda tamamlamışdı. Müasir janr meyarları ilə "poema" deyə biləcəyimiz bu məsnəvi minillərin tarixini yığcam biçimdə əks etdirirdi və həcmcə çox da böyük olmayan bu əsəri yaratmaqçün Məşədi Azərin onlarla həcmli kitabı oxuduğu, fərqli qaynaqlardakı məlumatları tutuşduraraq ən mötəbərlərini səhifə-səhifə keçdiyi duyulmaqdadır. Bu əsəri ilə Məşədi Azərin məqsədi bir tərəfdən xalqına hansı babaların nəvəsi olduğunu anlatmaqdırsa, digər yandan da o uluların şərəfli yolunu mərhələ-mərhələ nişan verməkdi ki, tanıyın, bilin, qürur duyun, siz də bu şərəfli ocağın alovunu daha gur yandırın” [4]. Şair “Oğuznamə” əsərinin davamı kimi qələmə aldığı Türk-Moğol dövlətinin ən şanlı səhifələrindən, zəfərlərindən, milli adətlərindən, dövlətçilik ənənələrindən, Türk-Moğol hökmdarı Çingiz xan və onun qurduğu dövlətin tarixindən bəhs edən üçüncü tarixi mövzulu əsəri “Çingiznamə” dastanını 1935-ci ildə yazmışdır. Əsər 1965-ci ildə az tirajla nəşr edilmişdir [5].

## Əsas hissə / *Main part*

“Çingiznamə” dastanı [2] Əbülqazi Bahadırxanın “Şəcəreyi-türk” [1] əsəri ilə səsləşir. Dastan məsnəvi şəklindədir və 910 beytdən ibarətdir. Doqquz bab və hər bab da öz daxilində müxtəlif hadisələri əks etdirən zikrlərdən ibarət olan və nəsr şəklində qələmə alınan “Şəcəreyi-türk”dən [1, s.1-4] fərqli olaraq, Azər Buzovnalı dastanı bab və zikrlərə ayırmamışdır. İlk növbədə qeyd etmək lazımdır ki, şair əsəri “Oğuznamə”nin davamı kimi yazmışdır. Orta Asiyanın, Türk-İslam

coğrafiyasının XVII əsrdə ən görkəmli dövlət xadimi və orta əsr Türk tarixinə dair yazılan əsərlərin müəllifi olan Əbülqazi Bahadır Xan "Şəcəreyi-Türk" adlı əsərində "Çingiznamə"nin 17 variantını təsbit etdiyini söyləyir [6]. Bu məlumat, həmin dastanın Orta Asiya türkləri arasındakı məşhurluğunu göstərir. Azər Buzovnalının bu dastana müraciət etməsi, əsərin Azərbaycanın vətənpərvər ziyalıları arasında da tanınıb-sevildiyini sübut edir. Dastanın başlanğıcında şair Türk tarixinin qızıl səhifələrini əks etdirmək, əbədiləşdirmək, əsəri sözə-şeirə çevirmək üçün bu tarixi dərindən öyrəndiyini yazır. Burada Oğuz elinin dövlət quruluşu haqqında danışan şair hökmdarların bütün qövmlərdən nümayəndə seçərək qurultaya çağırdıqlarını, kasıb-dövlətli ayrımı olmadan hər kəsin sözünün dinlənildiyi, məclislər qurulduğunu qeyd edir. Yeni dövlət qurmaq üçün "Mengilinin ən sevgili övladı, Temirtaşın ulu, şanlı əhfadı" [5, s.90] Yıldız xanın hökmdar seçilərkən xalqın ürəkdən sevindiyini, dövlətin ədalətli idarəetmə sisteminə keçdiyini canlı boyalarla təsvir edir:

*El-obada məsərrətlər göründü,*
*Türk aləmi şənliklərə büründü.*
*Cülusunda əzəmətli xaqanın,*
*Ədalətdən yüzü güldü cahanın.* [5, s.90]

Ustad sənətkar dastanda bəzən hər hansı bir hadisə və məhfumun açıqlanması zamanı "şu bəhsdən bir haşiyə çıqalım, tarixi bir əfsanəyə baqalım" deyərək tarixi mənbələrdən aldığı bilgilərə və əfsanələrə müraciət edir. Məsələn, Timuçinlə Əmir Teymur Gürganın nəslinin ali mənsəbə yetdiyini sübut etmək üçün müxtəlif mənbələrdən aldığı yarıreal, yarıəfsanəvi bir əhvalatı qələmə alır, Çingizin və Teymurun nəslinin nurdan vücuda gəldiyini deyir, onların qarşılarında səcdə olunmasına və baş əyilməsinə layiq olduqlarını yazır. Dastan boyu tarixi faktların bədii boyalarla və orijinal poetik üslubda oxuculara çatdırıldığını görürük. Çingiz xanın doğuluşu, şəxsiyyəti və hakimiyyətə gəlişindən danışan şair tarixi mənbələr əsasında onun ata-babaları barədə məlumat verir:

*Çingiz xanın səkkizinci babası*
*Buğa xandır – Moğolların ağası*
*Temur daha Buğa xana mənsubdur,*
*O səbəbdən türk elinə məhbubdur.* [5, s.94]

Şair dastanda müxtəlif dövrlərdə Türk elinə ardıcıllıqla Yıldız-Dubun bayan- Alanqua (Yıldız xanın qızı) – Bozəncir- Buğa xan- Dutumən xanın xaqanlıq etdiyini, onların hər birinin nəsil şəcərəsini, övladlarını, tarixi hadisələrdə oynadıqları rolu, babalarının nurdan yarandığı üçün nur övladları olduqlarını yazır:

*Nurdan doğmuş çün bu nəslin əcdadı,*
*Neron bilir Türk qövmü bu əhfadı.*
*"Neron" sözü pakü tahir" deməkdir,*
*Neronlara, derlər, tanrı köməkdir.* [5, s.93]

Əsərdə döyüş səhnələri, şəhərlərin fəthi, müxtəlif dövlətlərlə əlaqələr, Türk xaqanlarının nəsli, Çingiz xanın şəxsiyyəti, onun bir sərkərdə kimi formalaşması, adının Timuçindən Çingizə keçməsinin səbəbi, hakimiyyətə gəlişi və dövləti idarəetmə üsulu və s. hadisələr tarixi faktlar, qədim mənbələrdən alınan bilgilər əsasında təsvir olunmuşdur.

Moğollar Çindən gələn Cəlairlər tayfası tərəfindən qılıncdan keçirilir, dövlətləri dağıdılır, lakin şahzadələrdən biri Qaydu əmisi Maçinin sarayında olduğu üçün sağ qalır. Hadisələrdən xəbər tutan Maçin xan "bu faciə kimdən gəlmiş zühura" [5, s.96] deyərək hadisəni törədənləri tutur və alınlarına damğa vurur, Qaydu xan hökmdar olur:

*Bu vaqədən sonra oldu Qaydu xan,*
*Moğollara ulu, şanlı bir xaqan*

*Ölkələrə nafiz oldu fərmanı,*
*Oldu Moğol, Türkü Tatar xaqanı.* [5, s.97]

Qaydu xanın dövləti idarəetmə üsulu, abadlaşdırma tədbirləri, ictimai asayişin qorunması üçün qoyduğu qaydaları, hakimiyyətin ədalətli olması üçün imzaladığı fərmanları, şəhərsalma işləri Türk-Moğol dövlətçilik ənənələrinin, qədim türklərin həyat tərzinin, mədəni-siyasi həyatının yüksək səviyyəsindən xəbər verir [5, s.99-100]. Türk xaqanlarının hakimiyyət illərinin ədalətli, firavan və bərəkətli olduğunu qeyd edən şair türklərin sakit, hüzurlu olduqları qədər "dava günü dəniz kimi çoşduqlarını", "daşqın sel tək dağı-daşı aşdıqlarını" [5, s.100] yazır, şəhərləri, dövlətləri fəth edərkən onların adil davrandıqlarını, fəth olunan şəhərlərdəki əhalinin hüququnu tapdamadıqlarını vurğulayır:

*Zalımlardan hər kim ölkə alardı,*
*Ədalətli ölkəsinə calardı*
*Himayəsi altındakı camaət ,*
*Azad olur yaşardılar fərağət.* [5, s.100]

Dastanın əvvəlində qeyd edildiyi kimi, poemada hər bir tarixi fakt araşdırıldıqdan, müxtəlif mənbələr əsasında dəqiqləşdirildikdən sonra bədii təxəyyül süzgəcindən keçirilmiş, yüksək sənətkarlıq, sadə, rəvan üslub ilə qələmə alınmışdır. Türk Moğol hökmdarı Tumna xanın iki oğlunun doğulduğunu, onlardan birinin Qəbəl, digərinin isə Qaculu olduğunu yazan şair, Çingiz xanın Qəbəlin, Temurlanın  Qaculunun əhfadı olduğunu qeyd edir. Qaculu iki yuxu görür, yuxulardan birində qardaşının nəslinin, digərində isə öz nəslinin hakimiyyətinin şərhi vardır. Müəllif Çingizin hakimiyyətə yüksəlişini tərənnüm edərək yazır:

*Bunlardan son dördüncüsü gələcək,*
*Yer yüzündən düşmənləri siləcək.*
*Şöhrətindən cümlə cahan dolacaq,*
*Əski dünya yenə cahan olacaq.* [5, s.102]

Çingiz xanın tarixdə qoyduğu izləri, hərb sənətinə gətirdiyi yenilikləri, dövlət idarəçiliyindəki ciddi qaydaları nəzərə çatdırır, Timurun  gələcək qələbələrini:

*Zamanında şanlı əmir olacaq,*
*Şöhrətiylə hamı aləm dolacaq.*
*Baş kəsməyən şahlardan tac alacaq,*
*Məğrib ilə Məşriqdən bac alacaq.* [5, s.103]

deyərək öncədən xəbər verir, türkləri müjdələyir. Şair Moğolların Xitay eli ilə olan əlaqələri, Xitay hökmdarı Altan xanın Moğol xanı Ələncəklə münasibətlərini də tarixi qaynaqların köməyi ilə oxucuların diqqətinə çatdırır [5, s.105-107]. Altan xanın saray əyanlarının təsiri ilə Ələncək xana xəyanəti, onu əsir alması, Qaculunun bir sərkərdə olaraq döyüş məharəti, Xitayın darmadağın edilişi, sonra Altan xanın bunun intiqamını almaq üçün Ələncəkin oğlanlarından birini – Bərqaqı əsir alıb onu taxta eşşəyin üzərinə mıxlayaraq öldürməsi səhnələri [5, s. 107-110] şair tərəfindən xüsusi məharətlə təsvir edilmişdir. Qaculunun Altan xandan, Çinü Xitay elindən qardaşı oğlanlarının qisasını almaq üçün ordusunu səfərbər etməsi, ordu quruculuğu, sərkərdəlik sahəsindəki istedadı və qələbə qazanmaq üçün göstərdiyi hünərlər vətənpərvər şairin qələmindən misralara axmış, sözlərə çevrilmişdir:

*Titrədərdi məhabəti pələngi,*
*Qorxudardı səlabəti nəhəngi.*

*Bir tərəfdən Qublə, bir yan Qaculu,*
*Şaşdırdılar düşmənlərə düz yolu.* [5, s.113]

Qaculu və Qublənin savaşdan sonra xalqına, əsgərinə, ordusuna olan münasibətlərini təsvir edərkən şair haşiyəyə çıxır, öz söykökünün türk olduğunu, türkün kimsəyə baş əymədiyini, "dünyanın ən qəhrəman xalqı","pak-tahir nəsl"i olduğunu "hər xaqana baş əymədiyini", "hər yetənə kölə" olmadığını deyir [5, s.115]. Bu misralardakı sətiraltı məna aydındır. Sovet boyunduruğundan narazı olan şair azad, müstəqil Türk keçmişini təəssüflə xatırlatmaqdadır. Azər Buzovnalı türk tarixində Barlas kimi tanınan sərkərdə və şahzadə İrdəmcinin "Barlas" adı aldığını, orduya sərdar təyin olduğunu, Barlas qövmünün bu türk sərdarından nəşət etdiyini məlumat verir [5, s.117]. Sonra Soğuçəçənin Ordugah rəhbəri olduğunu, onun zamanında Tatarıstanın Moğol ölkəsinə qatıldığını [5, s.118] və hadisələr axarında qalib ordunun Dilonbulduk yurduna yetişdiyi gündə fırtına qopduğunu, lakin bu fırtınanın adi bir hadisə olmayıb, Çingiz xanın mövludundan xəbər verdiyini yazır:

*Tarix beş yüz qırx səkkizə çatanda,*
*Tatarıstan hökuməti batanda*
*Dilonbulduq adlı yerdə Çingiz xan*
*Uğurlu bir gündə oldu anadan.* [5, s.118]

Bəzən şair hər hansı bir hadisənin təsviri zamanı türklərin geyim tərzinə, yemək adətlərinə, şənliklərdə igidlərin göstərdikləri hünərlərə də yer ayırır, hər bir adət-ənənənin şərh olunmasına, kökünə, əsl mənasına varmaq üçün müxtəlif mənbələrdən götürdüyü faktları bədii dillə oxucuya çatdırır. Çingiz xanın mövludu zamanı Türk ulusunda "Şölən oldu toy binası quruldu", "Yüzlərlə tay, dəvə, qoyun soyuldu", "Musiqi səsi yerdən gögə dayandı", "Ayaqçılar əllərindən qonaqlar almadaydı qımıs dolu ayaqlar", – deyərək şənlikləri yüksək əhvali-ruhiyyə ilə təsvir edir. Əsərdəki şənliklərin, matəm günlərinin, döyüş səhnələrinin təsviri "Kitabi Dədə Qorqud" dastanlarındakı səhnələri xatırladır:

*Toy günləri bulundular hər işdə,*
*At çapmaqda, ox atmaqda, yarışda.* [5, s.120]

Doğulduğu gündən böyük Türk-Moğol imperiyasının banisi, cəsur sərkərdə Çingiz xanın həyatı, döyüşləri şair tərəfindən xüsusi məhəbbətlə tərənnüm olunmuşdur. "On üç yaşı bitməmiş" atasının vəfatı, otuz yaşa yetənə qədər Moğol elinə hökmranlıq etməsi [5, s.121], rəşadəti və cəsurluğu ustad sənətkarın məharətli qələmi ilə canlandırılmışdır. Əsərin bir yerində xalqın Timuçindən üz döndərdiyini, talcuylara təbəəlik etdiyini ürək ağrısı ilə təsvir edərək fikir ayrılığının, tərəflərə parçalanmanın bir xalq, bir dövlət üçün fəlakət olduğunu göstərir. Öng xaqanın ordusu başına keçən Timuçin xalqın qəhərəmanı idi, xaqanın inandığı, güvəndiyi sərkərdə idi:

*Öng xan ona inanıb da kişvəri*
*Təslim etdi imarətü ləşkəri.* [5, s.123]

Lakin həmişə olduği kimi, yenə həsəd edənlər, xalqın qəhrəmanına qara yaxanlar ona iftira atdılar, Öng xaqanın yanında onu ləkələdilər. Şair bu durumu təsvir edərkən atalar sözlərinə, hikmətli kəlamlara üz tutur, həsədin, ikiüzlülülyn törətdiyi fitnələrin doğurduğu faciələrin dünyanı məhv etdiyini yazır:

*Bu fitnələr törəməzdi dünyada-*
*Nifrət etsə əhli-aləm həsədə.* [5, s.123]

Dastanda Timuçinin zəfərlərindən sonra onun Moğolustan, Tatarıstan və Türküstana hökmranlıq etməsi [65, s.126], "tarix beş yüz doxsan doqquz" da qurultay çağırması, bütün ulusun, elatların, xaqanların, xanların, varlı bayların burada iştirakı təsvir olunur [5, s.127]; "Aq su bəglərin,

tərlanlarla tərxanların, ədna-əlaların, böyük kiçiyin" toplandığı qurultayda Çingiz xanın əyanı qəbul etdiyini, adətə görə, "doqquz dəfə yerdən gögə" qaldırıldığını, onun işləri nizama salmayana qədər "qılıncını heç qoymasın niyama" deyərək, əhd etdiyini ifadə edir:

*Əhd etdigi sözlərində dayandı,*
*Yatmış bəxti uyqusundan oyandı.*
*Gecə gündüz cəsarətlə çalışdı,*
*Fəthü zəfər qazanmağa alışdı.* [5, s.128]

Əzəmətli xaqanları devirərək dünya fatehi olduğunu yazır, Moğolustan, Tatarıstan, Türküstan, Çinü Xəta, Tibet, Kəşmir, Hindistan, Zabilistan, Dağıstanü Gürcüstan, Misir, Yunanıstan, İtaliya, Ərəbistan, Həbəşistanı alaraq, Rusiya torpaqlarına girib oradan da Bakı yolunu tutması, bu zaman İdil şəhərindən keçməsi, Hacıtərxanı, Saratovu, Qazanı, Simbirski, Sızranı fəth etdərək Bakıya gəlişini [5, s.128] təsvir edir. Çingiz xan ömrünün son günlərində öz ordusuna və xalqına üz tutaraq söyləyir:

*Yanaşmayın hərgiz, – dedi, – nifaqə.*
*Olmaz isə aralıqda ittifaq,*
*Mümkün degil dövlət üçün yaşamaq.* [5, s.129]

"Altı yüzdən igirmi beş" gedəndə, "Ramazanül-mübarəkin dördündə" böyük sərkərdənin, dövlət xadiminin vəfat etdiyini qəm-qüssə ilə, böyük kədərlə bildirən şair "ey istəyən dutmaq küllən cahanı, sal yadına hər dəm Çingiz xaqanı" deyir. Tarixi döyüş səhnələrinin, şəhərlərin fəth tarixlərinin ətraflı şərh olunduğu bu əsərdə şair bir sıra olaylara aydınlıq gətirmişdir. Ədib bədii ifadə vasitələrinin müxtəlifliyi, dilin sadəliliyi və axıcılığı, hadisələrin faktlar əsasında nəql olunması yolu ilə əsərin oxunaqlığını artırdığı kimi, bəzi hallarda mifoloji motivlərdən istifadə edərək, tarixi şəxsiyyətlərin həyatına dair bəzi məqamları ilahi, fövqəltəbii qüvvələrlə əlaqələndirir. Dastanın bədii gücünü artırır, qəhrəmanını ilahiləşdirir. Burada Dilonbulduq təpəsində Çingiz xanın qurultay çağırmasından "üç gün əvvəl beşrəngli bir quş"un gəlib "dördguşəli bir daş üzrə əgləndiyi" və qeyri-adi hadisələrin baş verdiyi açıqlanır, quşun hər səhər "Çinğız, Çinğız" dediyi, üç gün sonra qonduğu daşın yarıldığı, içindən "xas bud dinli bir möhür" çıxdığı, möhürdə xariqələr göründüyü [5, s.133] təsvir olunur. Bu hadisənin sonunda Timuçinin ləqəbinin niyə Çingiz olması oxucuya aydınlaşdırılır:

*Ortasında quplumbəğə çizilmiş,*
*İki yandan ajdər şəkli dizilmiş.*
*Bunu görən xalq heyrətə dalmışdır,*
*Temuçin də "Çingiz" adın almışdır.* [5, s.132-133]

## Nəticə / *Conclusion*

Xüsusi olaraq qeyd etmək lazımdır ki, "Çingiznamə" əsərində hadisələr, döyüş səhnələri, şəhərlərin fəth olunması, müxtəlif dövlətlərlə əlaqələr, Türk xaqanlarının, Çingiz xanın hakimiyyətə gəlişi və dövləti idarəetmə üsulu və s. kimi hadisələr tarixi faktlar işığında təsvir olunmuşdur. Milli mücadilə dönəmində, Cümhuriyyətin qurulması zamanı və ondan sonrakı dövrlərdə fəal olan şairin ziyalı və görkəmli ictimai xadimlərlə əlaqəsi, tarixi əsərlərə müraciəti sübut edir ki, Azər özü də elə milli hərəkatın fəallarından olmuş, hətta yaşına, təcrübəsinə, mənəvi-əxlaqi dəyərlərinə görə mücadilə tərəfdarları üçün örnək şəxsiyyət sayılmışdır. Dövrünün mütərəqqi fikirli, türkçülük, milli birlik və azadlıq ideologiyası ilə yaşayan, milli-azadlıq şüarını əlində əsas tutan ziyalılar, elm-mədəniyyət xadimləri ilə sıx əlaqəsi olan Azər Buzovnalı əslində mənəvi repressiyadan kənarda qalmamışdır. Qocaman şairin yaradıcılıq fəaliyyətinə olan biganəlik, Azərbaycan ədəbiyyatı

tarixində dəyərli olan "Oğuznamə", "Çingiznamə" kimi əsərlər yazmasına baxmayaraq, sağlığında əsərlərinin nəşr olunmaması, proletar şairlər və tənqidçilər tərəfindən "epiqonçu", "təqlidçi" kimi damğalanması, ədəbiyyat tariximizdə, bədii tərcümə sahəsində böyük xidmətləri olan maarifçi, pedaqoq kimi fəaliyyət göstərən ədibin yalnız ömrünün son çağlarında Yazıçılar Birliyinə üzv qəbul edilməsi mənəvi repressiyanın bariz göstəricisidir.

**Ədəbiyyat / *References***


1. Bahadırxan Ə. Şəcəreyi-türk. I cild. – Petersburq: İmperator Akademiyası Nəşriyyat evi, 1871.
2. Buzovnalı A. Oğuznamə. – AMEA, ƏYİ.-D 112/8227.
3. Buzovnalı A. Oğuznamə. – Bakı: Azərbaycan Aşıqlar Birliyi, 2023.
4. Hüseynov R. Qoca Məşədi Azər niyə cavan qalmışdı. – "525-ci qəzet", 2024, 18 avqust.
5. Məşədi Azər. Seçilmiş əsərləri. – Bakı: Boz oğuz-Nicat, 1996.
6. htpp/www-edeb.ogretmeni-çengizname


## Монументальный художественный памятник «Чингизнаме» в творчестве Азера Бузовналы


**Кенуль Багирова**
Доктор философии по филологии
Институт рукописей имени Мухаммеда Физули НАНА
E-mail: bagirova.konul@yahoo.com



**Резюме.** В архиве Института рукописей имени Мухаммеда Физули НАНА хранится автограф-рукописный экземпляр «Чингизнаме», написанный мастером слова Азером Бузовнали, писавшим и творившим в конце 19 – начале 20 века. Историко-героический эпос «Чингизнаме» выдающийся поэт написал в 1935 году, в мудрые годы своей жизни. В 1908 году, годами ранее эпоса «Чингизнаме», поэт написал религиозно-историческое произведение «Газаватнаме», а в 1925 году – произведение большого научного и исторического значения «Огузнаме», созданное на основе национального прошлого наших предков, фундаменте национального культурного наследия Деде-Коркуда и Озан-ашуга. Любовь поэта к турецкости, национально-духовным ценностям, нашему историческому прошлому нашла отражение в его историко-героических эпосах.

В представленной статье уточнено своеобразие произведения «Чингизнаме» как образца художественного искусства в азербайджанской литературе, в контексте подобных исторических произведений исследовано отношение автора к нашему национальному прошлому, национальным моральным ценностям и, главным образом, обществу, в котором он жил, а также определена роль исторической темы в творчестве поэта.



**Ключевые слова:** Азер Бузовналы, «Чингизнаме», «Огузнаме», рукопись, наше национальное прошлое, история, литература